# QEYRİ NEFT-QAZ SEKTORU

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ PERSPEKTİVLƏR

- ✓ Dünyada geosiyasi gərginliklərin davam etməsi, qlobal iqtisadiyyatda qeyri-müəyyənliklərin və risklərin artması şəraitində 2024-cü ilin yanvar-mart aylarında da ölkə iqtisadiyyatında iqtisadi artım və şaxələnmə prosesləri davam etmiş, makroiqtisadi sabitlik hökm sürmüş, inflyasiyanın azalması meylləri güclənmiş və ölkənin valyuta ehtiyatları artmışdır.
- ✓ 2024-cü ilin yanvar-mart ayları ərzində ölkədə 29,1 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,0 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. ÜDM-nin 64,3%-i qeyri neft-qaz sektorunun payına düşmüşdür.
- ✓ 2024-cü ilin birinci rübündə əvvəlki ilin müvafiq dövrünə nisbətən qeyri neft-qaz sektorunda ÜDM 6,7% artaraq 18,7 milyard manat olmuşdur.
- ✓ Qeyri neft-qaz sektorunda yaradılan ÜDM-nin 4,4%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 8,3%-i qeyri-neft-qaz sənayesi, 9,3%-i tikinti, 15,1%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 10,6%-i nəqliyyat və anbar təsərrüfatı, 3,7%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,6%-i informasiya və rabitə sahələrinin, 31,7%-i digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər isə 14,3% təşkil etmişdir.
- ✓ 2024-cü ilin yanvar-mart aylarında tikinti sahəsində 11,8%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 10,2%, informasiya və rabitə sahəsində 10,4%, qeyri neft-qaz sənayesində 7,2%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 1,1%, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 3,2%, nəqliyyat və anbar təsərrüfatında isə 17,3% artım əldə olunmuşdur.
- ✓ Ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş sərmayənin 64,5%-i və ya 2458,2 milyon manatı qeyri neft-qaz sektorunun inkişafına sərf edilmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 3,8%-i və ya 146,2 milyon manatı qeyri neft-qaz sənayesinə yönəldilmişdir.
- ✓ Qeyri neft-qaz sektorunun gələcək inkişaf dövründə qeyri-neft sənayesinin şaxələndirilməsi və daha da inkişaf etdirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, rəqəmsal ticarətin inkişafı və xidmət fəaliyyət növlərinin genişləndirilməsi, turizm sahəsinin bərpasının sürətləndirilməsi əsas prioritet istiqamətlər kimi müəyyən olunmuşdur.

# KƏND, MEŞƏ VƏ BALIQÇILIQ TƏSƏRRÜFATLARI

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ




- ✓ **2024-cü ilin yanvar-mart aylarında kənd təsərrüfatında 832,1 milyon manatlıq əlavə dəyər yaradılmışdır. Əvvəlki ilin müvafiq dövrünə nisbətən bitkiçilik məhsullarının istehsalı 2,9%, heyvandarlıq sahəsində məhsul istehsalı isə 1,0% artmışdır.**
- ✓ **Heyvandarlıq sektorunda artım əsasən yumurta (5,2%), süd və ət məhsulları (0,6%), bitkiçilikdə isə tərəvəz məhsullarının (2,7%) istehsalının artımı hesabına əldə olunmuşdur.**

# QEYRİ NEFT-QAZ SƏNAYESİ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Qeyri neft-qaz sənayesində əlavə dəyərin strukturu, mln. manat




- ✓ **2024-cü ilin yanvar-mart aylarında qeyri neft-qaz sənayesində yaradılmış əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,2% artaraq 1544,4 milyon manat təşkil etmişdir. Artım əsasən qeyri-neft emalı sənayesi hesabına baş vermişdir.**

# TİKİNTİ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Qeyri neft-qaz sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların strukturu, %




- ✓ **2024-cü ilin yanvar-mart aylarında qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 4,8% artaraq 2458,2 milyon manata çatmışdır.**

# TİCARƏT VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN TƏMİRİ






✓ **2024-cü ilin yanvar-mart ayları ərzində ticarət və nəqliyyat vasitələrinin təmiri sektorunda yaradılan əlavə dəyər 3,2% artaraq 2830,0 milyon manat olmuşdur.**

# NƏQLİYYAT VƏ ANBAR TƏSƏRRÜFATI

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ







- ✓ **2024-cü ilin yanvar-mart aylarında nəqliyyat və anbar təsərrüfatı sahəsində yaradılmış əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən 17,3% artaraq 1989,9 milyon manat təşkil etmişdir.**
- ✓ **2024-cü ilin yanvar-mart aylarında yük daşımaları əvvəlki illə müqayisədə 4,7 faiz artaraq 54,6 milyon tona, sərnişin daşımaları isə 6,9 faiz artaraq 452,9 milyon nəfərə çatmışdır.**
- ✓ **Yük daşımalarında artım avtomobil nəqliyyatı, sərnişin daşımalarında isə metro və avtomobil nəqliyyatının hesabına baş vermişdir.**

# TURİSTLƏRİN YERLƏŞDİRİLMƏSİ VƏ İCTİMAİ İAŞƏ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə yaradılmış əlavə dəyər və artım tempinin dinamikası




✓ **2024-cü ilin yanvar-mart aylarında turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində yaradılmış əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,2 faiz artaraq 684,6 milyon manat təşkil etmişdir.**

# İNFORMASİYA VƏ RABİTƏ






- ✓ **İnformasiya və rabitə sektorunda 2024-cü ilin yanvar-mart aylarında yaradılmış əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,4 faiz artaraq 489,5 milyon manat təşkil etmişdir.**
- ✓ **Bu sektorda göstərilən xidmətlərin 36,8 faizi mobil telefon rabitəsi sahəsində formalaşmışdır.**